# O, QƏLBLƏRDƏ YAŞAYIR

## Mikayıl Gözəlovsuz ötən illər

**Həyatda onu bir neçə dəfə görmək mənə də nəsib oldu. Təbii ki, Qarabağda, Şuşada qarşılaşdım onunla. Özü də hadisələrin "daş" dövründə. 1988-ci ilin qışından başlayaraq tez-tez üz tutduğum...**

Şuşada digər sayılıb-seçilən ziyalılarla, rəhbər işçilərlə birlikdə onunla da bir məclisdə olmaq, onun da fikirlərini eşitmək bəxtimə düşdü. Açığını deyim ki, təmkini, üstəlik fikirlərini köklü şəkildə əsaslandırmaq qabiliyyəti mənə çox xoş gəlmişdi. Ona görə də daxilən ona simpatiya yaranmışdı məndə.

Barəsində danışdığım bu insan Şuşada şəhid oldu. Özü də iş otağında vəzifəsini qətlə yetirildi. Amma ona qədər artıq bütün Azərbaycan onu tanıyırdı. Hamı Mikayıl Qoca oğlu Gözəlovun kimliyini eşitmişdi, duymuşdu. Ona görə də Mikayıl müəllim qətlə yetiriləndə xalqın duyumlu, işıqlı, hətta belə demək mümkünsə, onu qiyabi tanıyıb sevənlər hansı bir itkiyə məruz qaldığımızı təəssüf hissi ilə yaşadılar. Və hər kəs bu itkinin sıradan olmadığını, düşünülmüş şəkildə gerçəkləşdirildiyini anladı. Hamı bildi ki, Mikayıl Gözəlov Şuşanı canı qədər sevdiyi üçün, torpağa bağlı olduğu üçün, Azərbaycanın bütövlüyü yolundakı qətiyyətinə görə sifarişli bir şəkildə ortadan götürüldü. Doğrudur, bu qətl Mikayıl Gözəlovu cismən bizdən ayırdı. Amma o, ruhən, xidmətləriylə, əməlləriylə özünü yaddaşımıza və tariximizə həkk edə bildi.



Mikayıl Gözəlov Ağdamın Mərzili kəndində doğulmuşdu. Özü də 1948-ci ilin aprel ayının 5-də. Mərzilidə doğulan Mikayıl Gözəlov 1991-ci ilin dekabr ayının 11-də Şuşada iş otağında qətlə yetirildi. O, qətlə yetiriləndə 43 yaşı var idi. Amma bu 43 ildə Qarabağ camaatı üçün, Şuşa üçün çox işlər görə bilmişdi. Həyatın müxtəlif sahələrində öz qabiliyyətini nümayiş etdirməyi bacaran və o vaxtkı Politexnik İnstitutunun inşaat fakültəsini uğurla başa vurub, təyinatla Şuşada işləməyə gələn Mikayıl Gözəlov qısa bir müddətdə idarə rəisi vəzifəsinə qədər yüksəldi. Şuşada tikilən neçə-neçə yaşayış evinin, sosial obyektin, salınan küçə və yolların çəkilişində, abadlaşmasında onun xüsusi xidmətləri oldu. Sonra Xankəndində işləməyə başladı. Burada da o, qətiyyəti ilə erməniləri yerində otuzdurmağı bacardı. Ona görə də ermənilər ondan çəkinir, ehtiyat edirdi. Anlayırdılar ki, Mikayıl Gözəlovla bacarmayacaqlar. Ona görə də müxtəlif variantlarla onu Xankəndindən uzaqlaşdırmağa çalışırdılar. Belə bir vaxtda Mikayıl Gözəlov Şuşa rayon Xalq Deputatları Sovetinin icraiyyə komitəsinə sədr seçildi. Artıq 1988-ci ilin oktyabr ayı idi. Hadisələr daha geniş ərazini əhatə etmişdi. 1991-ci il noyabr ayının 7-də isə Mikayıl Gözəlov Şuşa rayon icra hakimiyyətinin başçısı təyin edildi. Həmin o ağır günlərdə heç nədən qorxub çəkinmədən ermənilərin üstünə gedən, onları öz cəsarəti ilə çaşdıran Mikayıl Gözəlov təkcə qarabağlıların deyil, həm də bölgənin azərbaycanlı əhalisinə bir ümid, inam bağışlayırdı.

Təəssüf ki, dəfələrlə ölümlə üzüzə gələn, hətta vertalyot qəzasına düşməsi belə Mikayıl Gözəlovu geri addım atmağa məcbur edə bilmədi. Əksinə, o, Şuşa ətrafındakı erməni quldur dəstələrinin yuvalarının dağıdılmasına rəhbərlik edənlərdən bir kimi həmişə öndə getdi. Elə bu rəhbərlik məharəti, cəsarəti də 1991-ci ilin dekabrın 11-də onun qətli ilə neçə-neçə ümidin sönməsinə, arzuların yarımçıq lamasına səbəb oldu. Amma bu ölüm Mikayıl Gözəlovu nə Qarabağdan, nə də onu sevənlərdən ayıra bilmədi. Çünki o, əqidəsinin və xalqının qurbanı, şəhidi idi. Bu gün aramızda cismən olmasa da, ruhən biz onu xatırlayır və ruhu qarşısında baş əyirik.

**Əbülfət MƏDƏTOĞLU**